Dahi bəstəkar, Şərqdə operanın banisi, nəzəriyyəçi-musiqişünas, dramaturq və publisist Üzeyir Hacıbəyli özünün "Azərbaycanda musiqi təhsili" məqaləsində yazırdı: "Azərbaycan türkləri istedadi-musiqicə nə osmanlı türklərindən, nə də qonşuları iranilərdən heç də geri qalan deyildirlər.



# Azərbaycan kamançası dünən, bu gün və sabah

**Qafqaz millətləri içində isə musiqiyə ən müstəid olanları Azərbaycan türkləridir desək, zərrəcə mübaliğə olmaz. Bunların bir çoxu məşhur xanəndə və sazəndələri deyil, yalnız özləri içində, bəlkə ümumqafqaz millətləri arasında tanınmış və şöhrət qazanmış musiqidarlardır.**

Tarzən sadıqların, xanəndə əbdülbağıların, aşıq nəcəfqulularn adları və sədaları Qafqazın hər bir yerində məşhur olub beynəlmiləl bir mahiyyətdə ad qazanmışlardır. Əgər əvvəldən bir taqım dini, ürfi və siyasi məmaniyyətlər mövcud olmasaydı, Azərbaycan türkləri deyil, yalnız Şərqin, bəlkə Qərbin dəxi meydani-sənətinə də məharət göstərib rəqabət edə biləcək sənətkarlar yetişdirə bilərlərdi" (1, s. 204).

Milli sərvətimiz olan çalğı alətləri öz qədimliyi, zənginliyi və müxtəlif növlülüyü ilə seçilir. Qobustan qaya rəsmlərinin yaxınlığında yerləşən və zərb aləti kimi istifadə edilən "Qaval daş", xalqımızın yaşadığı ərazilərdə arxeoloji qazıntı işləri zamanı aşkar olunan əşyaların üzərində müxtəlif çalğı alətlərinin həkk edilməsi, onların qədim tarixə malik olmasını göstərir.

Çalğı alətlərinin əksəri təkmilləşərək dövrümüzə qədər gəlib çatmışdır. Çalğı alətlərinin forması və səs imkanlarına əsaslanaraq, xalqın musiqi təfəkkürü, estetik zövqü barədə fikir yürütmək mümkündür. Çünki onların hər biri cəmiyyətin sosial, mədəni və mənəvi tələbatından yaranmışdır.

Tanınmış musiqişünas Səadət Abdullayevanın tədqiqatları göstərir ki, müasir təsnifatın əsaslandığı səs mənbəyinə görə Azərbaycan ərazisində yayılan çalğı alətindən 32-si simli (onlardan 26-sı mizrabla, 4-ü kamanla, 2-si çubuqla çalınır), 23-ü nəfəs, 16-sı zərb, 17-si isə özüsəslənən alətlər qrupuna aiddir. Deməli, Azərbaycanda mizrabla çalınan simli alətlər daha geniş yayılmışdır. Bu qrupa daxil olan alətlər bir vaxtlar əsasən kef məclislərində, şahların və zadəganların rəsmi qəbullarında, ova yola düşərkən və ov vaxtı səslənirdi (2, s.210).

Tədqiqatçı Oqtay Quliyev Azərbaycan xalq musiqi ifaçılığı tarixindən bəhs edərək yazır: "Azərbaycan musiqisi və musiqi alətləri hələ qədim zamanlardan klassik poeziyamız ilə sıx bağlıdır. Təsadüfi deyildir ki, biz xalq musiqi alətləri haqqında ilkin məlumatları rəsm qalereyaları, arxeoloji qazıntılar və dastanlarımızla yanaşı məhz klassik poeziyamızdan alırıq. Müxtəlif əsrlərdə poeziyamızın bir çox gözəl nümunələrini yaratmış Qətran Təbrizi, Nizami Gəncəvi, Əfzələddin Xaqani, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Seyid Əzim Şirvani, Molla Pənah Vaqif kimi ölməz sənətkarların əsərlərində təxminən 60-a qədər xalq çalğı alətlərinin adına rast gəlirik. Bu alətlər mizrabla, kamanla, nəfəslə və zərblə çalınaraq dörd qrup təşkil edir" (3, s. 3).

Görkəmli musiqişünas və bəstəkar Əfrasiyab Bədəlbəyli "Musiqi haqqında söhbət" kitabında yazırdı ki, "simli musiqi alətlərini daha da təkmilləşdirmək və yeni musiqi alətlərinin konstruksiyası üzərində düşünmək lazım idi. Bir çox sınaqlar nəticəsində məlum olur ki, simi barmaqla sıxmaqla onun uzunluğunu süni surətdə qısaltmaq və beləliklə də, simin verdiyi səsi istənildiyi kimi bəmləşdirmək və ya da zilləşdirmək olar" (4, s. 22).

Lakin bu vasitə ilə alınan səs, təəssüf ki, uzun müddət

səslənmir. Halbuki simli alətlərin də nəfəsli alətlərdə olduğu kimi, nisbətən aramsız uzun bir müddət səslənməsi bəzən daha yaxşı təsir bağışlaya bilər. Bunun üçün simləri başqa bir vasitə ilə hərəkətə gətirmək, daha doğrusu titrətmək lazımdır. Nəhayət, at yalından və ya quyruğundan alınmış tüklərin bu iş üçün çox münasib olduğu aşkar edilir.

Bir çəngə at tükünün bir ucunu kamanın bir tərəfinə, o biri ucunu o biri tərəfinə bağlayıb simlərin üzərinə çəkdikdə simlərin istənilən qayda ilə uzun müddət səslənə bilməsi aşkar oldu. Nəticədə rübab, kamança, qudok, viola və nəhayət, skripka kimi kaman (smıçok) ilə çalınan simli musiqi alətləri meydana gəldi (4, s. 23).

Orta əsrlərdə Azərbaycanda bir sıra kamanlı alətlər mövcud olmuşdur. Lakin dövrümüzə qədər onlardan yalnız kamança özünü mühafizə edə bilmişdir. Kamanlı alətlər (kamança, skripka, violençel və s.) zərb alətlərindən və nəfəsli alətlərdən sonra meydana gəlmişdir. Görkəmli fransız mütəfəkkiri Jan Jak Russo kamanlı alətlərdən violençelin yaranma tarixini yer üzündə ilk insanın peyda olması dövrünə aid edir. Lakin sonradan musiqişünas alimlər müəyyənləşdirdilər ki, kamanlı alətlər simli alətlərin ən təkmilləşmiş növü olub ilk dəfə Çində və Hindistanda meydana gəlmişdir. Qərbin bir sıra görkəmli musiqişünasları da kamanlı alətlərin Avropaya Şərqdən gəldiyini etiraf edirlər (5, s. 47).

Üzeyir bəy 1925-ci ildə yazdığı "Azərbaycan musiqi həyatına bir nəzər" məqaləsində göstərirdi: "Uzunsəsli, telli aləti-musiqiyyətimizin yeganə nümayəndəsi də "kamança"dır. Kamançanın telləri üzərində ucları uzun bir çubuğa rəbt edilmiş tük dəstəsilə çalındığından hasil edilən səsləri istədikcə uzatmaq olar.

Buna görədir ki, kamançada çalınan musiqi tarda çalınandan səscə daha mükəmməl və insanın səsinə daha yaxın olar. Əlavə, kamança səsinin baxüsus "bəm"də tardan daha təsirli olduğunu nəzərə alsaq və tellər üzərində barmaq qoyub "vibrasion" deyilən titrək səslər hasil edilməsini dəxi əlavə etsək, kamançanın tardan daha kamil və daha faiq bir aləti-musiqiyə olduğu meydana çıxar. Zatən, tar "akompaniman" üçün yarar bir alət olduğu halda, kamança "melodik" alətlərdən ən gözəlidir (1, s. 223).

Kamança zəngin melodik imkanlara malik musiqi alətidir. Kamançanın tarixi də başqa xalq çalğı alətlərimiz kimi çox qədimdir. Nizaminin "Xosrov və Şirin" poemasından məlum olur ki, bu alət hələ o vaxtlar Azərbaycanda geniş yayılmışdır. XVI əsr Təbriz miniatür məktəbinin rəssamlarından Ağa Mirəkin, Mir Seyid Əlinin əsərlərində xarici görünüşünə görə kamançaya oxşar alətlər də təsvir edilmişdir.

Orta əsr miniatürlərində təsvir olunan kamançanın alt qurtaracağı döşəməyə söykədilmişdir. Ölçüləri müasir növü ilə müqayisədə iridir. İndiki kimi başlığı-tacı fiqurludur. Alətin çanağı kürə şəklində və ya yastıdır. Müasir növlərinə nisbətən daha uzun girdə qolu, alət üçün dayaq rolunu oynayan fiqurlu "ayağı" vardır. Alət çubuq və tük topasından hazırlanmış kamanla səsləndirilir.

1683-cü ildə Azərbaycanda olmuş məşhur alman səyyahı Engelbert Kempfer kamançanın xalq çalğı alətləri içərisində xoş təsir bağışlayan alətlərdən biri olduğunu qeyd edirdi (3, s. 4).

S.Abdullayeva kamança alətini belə səciyyələndirir: "Müasir kamança dörd simli olub, əsasən qoz ağacından hazırlanan kürə şəkilli çanaqdan, girdə qoldan, aşıqlar yerləşən kəllədən və "şiş" adlanan dəmir dayanacaqdan ibarətdir. Alətin ümumi uzunluğu 700-800 mm-ə çatır. Çanağın açıq tərəfinə balıq dərisi çəkilir, onun üzərində isə çəp vəziyyətdə qoyulmuş xərək yerləşdirilir. Xərəyə söykənən simlərin bir ucları şiş üzərindəki qarmaqlara, o biri ucları isə aşıqlara bağlanır. Çalınan zaman kamança şaquli vəziyyətdə saxlanılır, dayanacağı dizə söykədilir və at qılından hazırlanan yayı simlər üzərində hərəkət etdirməklə səsləndirilir. Bu vaxt sol əlin dörd barmağı ilə simləri qolun müəyyən hissəsində qola sıxmaqla müxtəlif səslər alınır" (6, s. 24).

Tədqiqatçı özünün "Azərbaycan musiqisi və təsviri sənət" kitabında yenə kamançadan bəhs edərək yazır: "Ürəklərə fərəh gətirən, insanı xəyala dalmağa vadar edən həzin və həm də füsunkar səsli qədim kamança biriki simli olub, uzun qola və dayağa malik idi. Hazırda onun dörd simi vardır. Onlardan 3-cü və 4-cü bəm simlər mis və bürünc tellə sarınmışdır. Simlər zoğal ağacından hazırlanmış, bir qədər əyilmiş çubuq şəklində olan və uclarına at tükü dəsti bağlanan kamanla çalınır. Alət əsasən qoz ağacından düzəldilən kürə şəkilli çanaq, girdə qol, onları birləşdirən və çanağın içərisindən keçən "şiş" adlanan dəmir mildən ibarətdir. Çanağın açıq üz tərəfinə nərə balığının dərisi çəkilir. Onun üzərində çəp vəziyyətdə qoyulmuş xərək yerləşdirilir. Xərəyə söykənən simlərin bir ucları şiş üzərindəki qarmaqlara, o biri ucları isə qolun yuxarı tərəfindəki aşıxlara bağlanır" (2, s. 212).

O.Quliyev də bir musiqi aləti kimi kamançanın bədii-texniki imkanlarından bəhs edir: kamança kürə şəkilli çanaq, pərdəsiz qol, aşıxlar yerləşən kəllə və metal dayaqdan (şiş) ibarətdir. Onun dörd simi vardır. Alətin simləri kvarta və kvinta intervalları üzrə köklənir. Orkestrdə kamançalar iki səsə bölünür (I-II). Səs kamanı simlərə çəkməklə alınır. Kamançanın detaşe, spikkato, leqato, qlissando, arko, pitsikato kimi ştrixləri vardır ki, bunların vasitəsilə onun texniki imkanlarından geniş istifadə olunur. Yumşaq və incə səs tembrli bu alətin diapozonu kiçik oktavanın "lya" səsindən üçüncü oktavanın "mi" səsinə qədərdir.

Üçüncü oktavanın "fa", "fa diyez", "sol" səslərinin çalınması mümkündür. Lakin iti templi musiqi parçalarında göstərdiyimiz səslərin keyfiyyəti və tembri xoş təsir bağışlamır. Kamançanın notları sol kaman açarında yazılır və yazılışından böyük sekunda yuxarı səslənir. Orkestrdə kamançalara çox vaxt melodiyanın ifası tapşırılır. Harmonik akkordları, polifonik ünsürləri kamançalar vasitəsilə səsləndirmək də əlverişlidir (3, s. 80-81).

Musiqişünas Əvəz Rəhmətov da göstərir ki, qədim kamança yalnız bir simli olub, uzun qoldan və ayaqcıqdan ibarət idi. Üç simli kamançanın tarixi XVII əsrdən məlumdur. XX əsrin birinci yarısında məşhur sənətkar, musiqi mədəniyyətimiz tarixində virtuoz kamançaçı kimi tanınan Aleksandr (Saşa) Arkadyeviç Ohanezaşvili kamançaya dördüncü simi əlavə edərək, onun imkanlarını daha da artırmış, bəm registrdə dolğun səslənməsinə və səs diapozonunu genişləndirməyə nail olmuşdur (5, s. 48).

Bununla əlaqədar görkəmli musiqi tədqiqatçısı Firidun Şuşinski yazırdı ki, Saşa Ohanezaşvili də vaxtilə tarı rekonstruksiya etmiş ustad tarzən Mirzə Sadıq Əsəd oğlu (Sadıqcan) kimi novator sənətkar idi. O, kamançanın və muğamatın təkmilləşməsi sahəsində gərgin işləmişdir. Saşa Ohanezaşviliyə qədər kamança üç simli olmuşdur. O, 1909-cu ildə kamançaya dördüncü simi əlavə etmişdir. Saşa Ohanezaşvili kamançaya yeni sim əlavə etməklə bu melodik alətdə ifaçılıq mədəniyyətini yüksək bir mərhələyə qaldırdı. Bu yenilikdən sonra kamançada musiqi parçaları daha rəngarəng səslənməyə başladı (8, s. 366).

Azərbaycan xalq çalğı alətləri arasında özünə mühüm yer tutan kamança ansambl ifaçılığının inkişafı ilə əlaqədar olaraq xeyli təkmilləşdirilmişdir.

Müasir kamançanın uzunluğu 650-900 mm-dir. Kamança tut və yaxud qoz ağacından hazırlanır. Gövdənin açıq hissəsinə balıq dərisindən pərdə çəkilir. Kamançanın qolu dairəvi, pərdəsiz olur və yuxarı getdikcə enlənir. Qolun aşağı qurtaracağına mil vurulur. Bu mil bütün gövdənin içərisindən keçərək ayaq kimi kənara çıxıb alətin söykənəcəyinə xidmət edir. Kamança çox vaxt sədəflə və süməklə bəzədilir. Onun üzərində olan xərək çəp qoyulur. Xərəyin çəp vəziyyətdə qoyulması simlərin düzgün və rəvan səslənməsinə kömək edir. Vaxtilə kamançanın telləri damarlı simlərdən ibarət olmuşdur. Sonralar isə damarlı simlər metal simlərlə əvəz edilmişdir (5, s. 49).

Məlumdur ki, kamança kamanla çalınır. Kaman hər tərəfdən uclarına bir neçə at tükü bağlanmış azca əyri çubuqdur. İfa zamanı barmağı kamanın ağac hissəsi ilə tükün arasında saxlayaraq tük dartılır. Skripkadan fərqli olaraq, kamanı bir simdən o biri simə keçirmirlər, burada alətin özünü kamana tərəf çevirib, simləri ona yapışdırırlar.

Kamança xalq çalğı alətləri ansamblı və orkestrində özünə həm solo, həm də müşayiətçi alət kimi layiqli yer tutmuşdur.

Kamançanın orkestrdə rolu böyükdür. Məlum olduğu kimi, digər simli alətlərdən fərqli olaraq kamançanın qol pərdələri yoxdur. Bu da istənilən şəkildə onun musiqi diapozonunu genişləndirməyə imkan verir. Kamança böyük səs əlvanlığına malikdir. Simlərin hər birində özünəməxsus səs çaları vardır. Birinci və ikinci simlərdə sərtlik duyulduğu və zil səsləndiyi halda, üçüncü və dördüncü simlər həzin, yumşaq, bəm səslə danışır. Bu da bəstəkara kamança üçün partiya yazarkən geniş yaradıcılıq imkanları açır. Harada və nə vaxt, hansı simdən və pozisiyadan istifadə etmək məsələsində bir o qədər də çətinlik çəkmir. Burada əsas məsuliyyət ifaçının üzərinə düşür (5, s. 50).

Kamançada ifa zamanı səslərin zənginliyi və ifadəliliyi başlıca olaraq kamandan, onu idarə edən şəxsdən çox asılıdır. Ona görə də kamança üçün kaman seçərkən çox diqqətli olmaq lazımdır. Çünki ştrixlərin müvəffəqiyyətli çıxması kamandan asılıdır. Başqa sözlə desək, digər musiqi alətlərində ştrixlərin səsləndirilməsi üçün mizrab üsullarından istifadə edildiyi halda, kamança çalğısında kamandan istifadə edilir. Musiqi əsərinin ifası zamanı tətbiq edilən ştrixdən düzgün istifadə edilmədikdə musiqinin xarakteri kəskin surətdə, bəzən tanınmaz şəkildə dəyişilə bilər. Məhz buna görə də istər orkestr daxilində kamança üçün solo partiyası yazan bəstəkar, istərsə də ifaçı kaman ştrixlərinin texniki imkanlarını maksimum nəzərə almalıdırlar.

XIX əsrin birinci yarısında fəaliyyət göstərən xanəndə, tar, kamança, yastı balaman və qoşa nağaradan ibarət ansambl dəstəsini xüsusi göstərmək lazımdır.

Həmin əsrin ikinci yarısından xanəndə Bülbülcanın dəstəsi, tarzən Sadıqcanın ansamblı və başqaları xalq arasında geniş şöhrət tapır.

XX əsrin əvvəllərində xanəndə, tarzən və kamançaçalandan ibarət sazəndə dəstəsi geniş fəaliyyət göstərirdi. Bu dövrdə xanəndələrin hər birinin tarzən və kamançaçalandan ibarət öz dəstələri var idi. Onlar xalq şənliklərində, toylarda və məclislərdə ancaq öz dəstələri ilə çıxış edirdilər. Həmin dövrün sazəndə dəstələrindən ən məşhuru xanəndə Cabbar Qaryağdıoğlu, tarzən Qurban Pirimov və kamançaçalan Saşa Ohanezaşvilidən ibarət ansambl idi.

Görkəmli kamançalan musiqiçilərimizdən biri də Qılman Salahov (1906-1974) olmuşdur.

Q.Salahov Üzeyir Hacıbəylinin təşkil etdiyi Azərbaycan Dövlət Türk Musiqi Məktəbində, sonra isə musiqi texnikumunda kamança sinfində oxumuşdur. O, Üzeyir bəyin təşkilatçılarından olduğu xalq çalğı alətləri ifaçılarının I Ümumittifaq müsabiqəsinin (1939, Moskva) laureatıdır. Q.Salahov 1931-ci ildən Ü.Hacıbəylinin dəvəti ilə xalq çalğı alətləri orkestrində işləmiş, 1938-1964-cü illərdə Azərbaycan Dövlət Filarmoniyasının mahnı və rəqs ansamblının bədii rəhbəri olmuşdur. Bir sıra mahnı və rəqslərin müəllifidir. Dirijor və kamançaçı Q.Salahov 1940-cı ildə Azərbaycan əməkdar incəsənət xadimi fəxri adına layiq görülmüşdür (7, s. 184).

Azərbaycan bəstəkarları xüsusi olaraq kamança üçün əsərlər, o cümlədən xalq artisti Hacı Xanməmmədov və başqaları konsertlər yazmışlar. Görkəmli bəstəkar Süleyman Ələsgərov orkestr üçün yazdığı bir sıra əsərlərində kamançanın imkanlarını böyük ustalıqla nəzərə almış və ifadəli kamança partiyaları yaratmağa nail olmuşdur. Xalq artisti Firəngiz Əlizadə görkəmli kaman ustası Habil Əliyevin orijinal yaradıcılığından çıxış edərək kamera-instrumental musiqi janrında violençel və fortepiano üçün "Habilsayağı" kompozisiyasını bəstələmişdir.

Folklor nümunəsi olan bir tapmacada kamança belə səciyyələndirilir:

***Üzük aldım qaşı yox,***
***Təpə gördüm daşı yox,***
***O nədir ki, ağlayır,***
***Gözlərinin yaşı yox.***

Akad. Teymur Bünyadov "Əsrlərdən gələn səslər" kitabında yazır: "Kamanın iniltisini eşidirəm. Düşünürəm,

nədir bu nalə? Kimsəsiz yetim ürəyinin sızıltısımı, yeganə övladını itirən bir ananın acı fəryadımı, nakam eşqin ürəkləri parçalayan harayımı, qürbətdə can verən bir qəribin son hıçqırtısı, son bayatısımı?! Nə üçün kaman ürəklərə qənim kəsilib? Niyə o, bizi bu qədər yandırır, göynədir? Kamanın kövrək sədasını eşidir, öz-özümə deyirəm: "De niyə dolmusan, niyə bulanmısan, nədən alışmısan, nədən yanmısan; harda qanadlanıb havalanmısan, yoxsa vurulmusan, yaralanmısan?" Onun ahu-naləsinin, iniltisinin səbəbini axtarır, kitabları vərəqləyirəm" (9, s. 92).

T.Bünyadov kamança haqqında düşüncələrini belə yekunlaşdırır: "Aşiq və məşuqların həsrətindən, göz yaşlarından yaranan kamança haqqında söhbəti qurtarıram. Lakin "Habil segah"ının xəyalı ovsunlayan sədalarını heç cürə unuda bilmirəm. Həbilin mahir barmaqlarına və kamanı duyub dilə gətirən həssas ürəyinə heyran qalıram" (9, s. 96-97) .

Xalq şairi Bəxtiyar Vahadzadənin ustad kamançaçalan Habilə həsr etdiyi misraları yada salaq:

***Bu səslər məlhəmdir könül ağrıma,***
***Onların önündə baş əyirəm mən.***
***Bu boyda dünyanı basıb bağrıma,***
***Öpüb-qucaqlamaq istəyirəm mən...***
***Bu ağac parçası yanmayır özü,***
***Ancaq od-ocaqsız yandırır bizi.***
***Onun atəşinə od şan-şan olur,***
***Bu səsin oduna alışır su da.***
***Ağac hər atəşə alışan olur,***
***Bəs niyə alışmır belə bir oda?***

Habil çalğısı dünyanı yeni gözlə görməkdə, onu dərindən duymaqda hisslərimizin bələdçisidir. Görkəmli şairimiz Tofiq Bayram demişkən:

***Xalqın ürəyidir Habil kamanı,***
***Kərəm aşiqidir ahı-amanı.***
***Quzuya döndərir pisi, yamanı,***
***"Kafir" də az qalır imana gəlsin.***

Sənətşünas, prof. İlham Rəhimli Habil Əliyev barədə yazır: "Habil Əliyevin lent yazılarına, vallarına daldadal qulaq asırsan. Gah "Segah" eşidirsən, gah "Sarı bülbül"ə qulaq asırsan, gah "Dügah"ı dinləyirsən...Adamı heyrət bürüyür. Deyirsən bəs təsnif, mahnı, ən əsası isə muğamlar Habilin əlində mumdur: istədiyi anda istədiyi şəklə salır.

H.Əliyevin "Rahab"ını dinləyəndə deyirsən bəs, bundan o yanası yoxdur. Beş gün...altı ay...bir il...sonra "Şüştər"ini eşidirsən, od alıb odlanırsan. Bu, möcüzədi deyirsən. Zirvə! Yenə vaxt keçir... Habil "Segah" çalır. Adamı yerindəcə donduran heyrətlə qulaq asırsan...

Bax buna görə də "Habil Kaman" ifadəsi Habil Əliyev sənətinin canını-cövhərini, bütün mahiyyətini açır. "Habil" və "Kaman" sözləri bir yerdə çox doğma səslənir, parçalanmaz qranit təsiri bağışlayır" (10, s. 4-5).

**Beləliklə, gördüyümüz kimi, Azərbaycan kamançası əsrlər boyu təkamül keçirərək bu gün mükəmməl milli musiqi alətimizə çevrilmişdir. Kamançada ifaçılıq və çalğı bizim xalq musiqisi, o cümlədən muğam sənəti ənənələrimizi zənginləşdirməkdədir.**

**● Elnur ƏHMƏDOV,**
***Azərbaycan Milli Konservatoriyasının dosenti,***
***Respublikanın əməkdar artisti***

## Ədəbiyyat

1. Üzeyir Hacıbəyov. Əsərləri on cilddə. II c. B. Azərbaycan SSR EA Nəşriyyatı - 1965.
2. Səadət Abdullayeva. Azərbaycan musiqisi və təsviri sənət. B. "Oğuz Eli" - 2010.
3. Oqtay Quliyev. Azərbaycan xalq çalğı alətləri orkestri. Xüsusi redaktoru Ramiz Zöhrabov.B. "İşıq" - 1980.
4. Əfrasiyab Bədəlbəyli. Musiqi haqqında söhbət. B. "Uşaqgəncnəşr" - 1953.
5. Əvəz Rəhmətov. Azərbaycan xalq çalğı alətləri və onların orkestrdə yeri. B. "İşıq" - 1980.
6. Səadət Abdullayeva. Kamança. "Elm və həyat" jurnalı - 1970, №8.
7. Üzeyir Hacıbəyov Ensiklopediyası. B. "Şərq-Qərb" - 2007.
8. Firidun Şuşinski. Azərbaycan xalq musiqiçiləri. B. "Yazıçı" - 1985.
9. Teymur Bünyadov. Əsrlərdən gələn səslər. B. "Gənclik" - 1975.
10. İlham Rəhimli. Habil Kaman. B. "İşıq" - 1987.

## Резюме

Кеманча (смычковый музыкальный инструмент вроде скрипки) является одним из древнейших и популярных музыкальных инструментов на Востоке и в том числе в Азербайджане. Пройдя историческо-художественную эволюцию он стал совершенным и необходимым инстру-ментом в образовании народного музыкального трио и оркестра. Исполнение и игра на кеманче обогащают традиции нашего музыкального фольклора, включая искусство мугам.

## Summary

The kamancha (an oriental bow instrument, a kind of fiddle or violin) is one of the ancient and popular musical instruments in the East, including Azerbaijan. Passing historical-artistic evolution it became a complete and necessary instrument in formation of the national trio and orchestra. Performing and playing the kamancha enrich the traditions of our folk music, including mugham art.